

***1937-ci ilin dəhşətli günləri idi. Adamlar bir-biri ilə görüşüb danışmaqdan, hətta salamlaşmaqdan belə çəkinir, gözə görünməməyə çalışırdılar. Hər gün ağlasığmaz hadisələr baş verir, dəhşətli xəbərlər yayılaraq adamları vahiməyə salırdı. İnsanların qəlbindən daş kimi ağır nisgil asılmışdı. Elə gün olmazdı ki, kiminsə qohumu, kiminsə dostu, kiminsə tanışı "Xalq düşməni" adı ilə damğalanaraq sürgünə göndərilməsin. Vahimə, qorxu, şübhə ayaq açıb yeriyirdi.***

# H.Cavid irsinə Heydər Əliyev qayğısı

Mətbuatda hər gün müəssisə və idarələrdə, elm və tədris ocaqlarında, şəhərlərdə və kəndlərdə gizli "əksinqilabçı", "qəsbçi", "ziyançı", "Trotskiçi", "pantürkist", "panislamist" təşkilatların aşkar edilməsindən, "xalq düşmənləri"nin əl-qol açmasından yazırdılar.

Məhz belə bir vaxtda Azərbaycan K(b)P-nın XIII qurultayı çağırıldı. Onun "məramı" da belə idi: daha çox "xalq düşməni" aşkara çıxarmaq. Hesabat məruzəsi ilə çıxış edən M.C.Bağırov son sözündə dedi: Bir baxın, Yazıçılar İttifaqında kimlər əyləşmişdi. Hazırda ifşa edilmiş Hüseyn Cavid, Əhməd Cavad, Mikayıl Müşfiq, Əli Nazim, Böyükağa Talıblı, Tağı Şahbazi, Əhməd Triniç kimiləri.

Bu qərəzçi və böhtançı tənqiddən Cavid nə qorxdu, nə də çəkindi. Çünki Cavid də Cavid idi. Lakin 1937-ci ilin iyun ayının 4-də Cavid tezliklə susduruldu, Vətənindən, ailəsindən çox-çox uzaqlarda qarlı Sibirin ən ucqar yerlərindən birində - İrkutsk vilayətinin Tayşet rayonunun Şevçenko kəndində torpağa qovuşdu, amma zamana təslim olmadı, əksinə XX əsri heyrətamiz bir məharətlə susdurdu.

Hüseyn Cavidin bəraət aldığı 1956-cı ildən bu yana şairin bənzərsiz sənətinin əsl qiymətini vermək, onun irsini həddən çox sevdiyi xalqına qaytarmaq üçün bir çox işlər görülüb.

Lakin 1981-ci ilin iyun ayında dahi şair-dramaturq Hüseyn Cavidin anadan olmasının 100 illiyinin keçirilməsi haqqında Azərbaycan KP MK-nin rəhbəri Heydər Əliyevin başçılığı ilə hazırlanmış bu qərarda göstərilən bir çox vacib işlər nəzərdə tutulur. Şairin Bakı və Naxçıvan şəhərlərində ev-muzeyləri yaradılıb, Bakıda monumental heykəli ucaldılıb. Üzərində Cavidin şəkli olan xatirə medalı və döş nişanı, poçt markası və zərf buraxılıb. Əsərləri Azərbaycan dilində 4 cilddə, rus dilində 2 cilddə çap olunub. Müxtəlif teatrlarda əsərləri tamaşaya qoyulub və onun haqqında sənədli film çəkilib. Qızı Turan Cavid öz xatirələrində yazır: "Baxmayaraq 1956-cı ildə atama bəraət verilmişdi, bununla əlaqədar bəzi işlər görülmüşdür. Lakin atama əsl bəraəti 1981-ci ilin iyun ayında "Hüseyn Cavidin anadan olmasının 100 illiyi haqqında" Heydər Əliyevin imzaladığı qərardan sonra hesab edirəm. Bu ədalətin zəfər çalması idi. Bunun üçün mən birinci növbədə Azərbaycan xalqının böyük oğlu Heydər Əlirza oğlu Əliyevə minnətdaram".

Cavidin ruhuna münasibətdə ən dramatik, ən yaddaqalan hadisə 1982-ci ilin oktyabrında baş verdi. Kommunist rejiminin tüğyan etdiyi bir vaxtda məhz Heydər Əliyevin təşəbbüsü ilə böyük şairin cəsədinin qalıqları vətəni Naxçıvana gətirilərək ev-muzeyinin yaxınlığında əbədilik torpağa tapşırıldı.

Hüseyn Cavid şəxsiyyətinə dərin məhəbbət bəsləyən Heydər Əliyev 1990-cı ildə Moskvadan Naxçıvana qayıdan gün Cavidin məzarını ziyarət edir. Ali Məclis Sədri işlədiyi dövrdə - 21 oktyabr 1992-ci ildə Hüseyn Cavidin anadan olmasının 110 illiyi ilə əlaqədar çağrılmış müşavirədəki çıxışında 37-ci ilin günahsız qurbanı olan böyük dramaturq bəraət aldıqdan sonrakı müddət ərzində respublikamızda onunla bağlı görülmüş işlər təhlil edildi, həmin gün qəbri ziyarət olundu.

Cəlil Məmmədquluzadə adına Musiqili Dram Teatrında yubiley gecəsi keçirildi.

1993-cü ildə xalqın təkidli tələbi ilə Bakıya dəvət olunan Heydər Əliyevi Hüseyn Cavid daim düşündürürdü. 1995-ci ilin iyun ayının 10-da çağırdığı müşavirədə şairin qəbri üzərində möhtəşəm bir məqbərə ucaldılması müzakirə edildi, bu iş tezliklə həyata keçirildi. Həmin vaxt Turan Cavidin arzusunu nəzərə alan bu böyük şəxsiyyət Mişkinuz Cavidin cənazəsinin Bakıdan, Ərtoğrul Cavidin cənazəsinin Naxçıvan qəbiristanlığından Hüseyn Cavidin məqbərəsinə köçürülməsini məsləhət bildi.

Daim Hüseyn Cavid irsinə qayğı ilə yanaşan Heydər Əliyev 1996-cı il oktyabr ayının 29-da Hüseyn Cavidin məqbərəsinin təntənəli açılışındakı nitqində demişdir:

"Hüseyn Cavid XX əsrdə Azərbaycan ədəbiyyatının, mədəniyyətinin inkişaf etməsində misilsiz xidmətlər göstərmişdir. Hüseyn Cavid Azərbaycan xalqını, onun mədəniyyətini, ədəbiyyatını yüksəklərə qaldıran şəxsiyyətlərdən biridir. Hüseyn Cavidin yaratdığı əsərlər Azərbaycan xalqının milli sərvətidir. Onlar bu gün üçün, gələcək nəsillər üçün dərslik kitabıdır".

2002-ci ilin oktyabr ayında "Hüseyn Cavidin anadan olmasının 120 illiyinin keçirilməsi haqqında" imzalanmış sərəncam da böyük şəxsiyyətə, onun yaratdığı milli sərvətə böyük qayğının nümunəsidir.

***Bəhruz AXUNDOV,***
***Hüseyn Cavidin Naxçıvandakı ev-muzeyinin direktoru***